**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**МАХАББАТ МАГЕРРАМ ГЫЗЫ ВЕЛИЕВА**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ДИДАКТИЧЕСКИХ И КОММУНИКАТИВНЫХ СПОСОБНОСТЕЙ ПРЕПОДАВАТЕЛЕЙ

**6107.01 - Общая психология**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку – 2014**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**MƏHƏBBƏT MƏHƏRRƏM QIZI VƏLİYEVA**

# MÜƏLLİMLƏRDƏ KOMMUNİKATİV VƏ DİDAKTİK QABİLIYYƏTLƏRİN FORMALAŞMASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**6107.01 – Ümumi psixologiya**

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı –2014**

İş Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru,
əməkdar elm xadimi,
professor **Əbdül Əli oğlu Əlizadə**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru,
professor **Rəna Həmid qızı Qədirova**

psixologiya üzrə fəlsəfə doktoru
**Ceyran Bədrəddin qızı Kuliyeva**

Aparıcı təşkilat: **Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası**

Müdafiə "26_" "_09__" 2014-cü ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2014 - cü ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi
psixologiya üzrə fəlsəfə doktoru,
dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 964; tiraj 100
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Respublikamız müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, təhsil sistemində də əsaslı işlərin görülməsi, ciddi islahatların həyata keçirilməsi zərurəti meydana çıxdı. Bu islahatlarda təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsi prinsipləri başlıca vəzifə kimi qəbul edilərək müəllim-şagird münasibətlərini məktəb həyatında yeni müstəviyə çıxardı.

Müasir təhsil sisteminə keçid şəraitində təhsil subyektləri arasında yaranmış yeni ünsiyyət formaları pedaqoji mühitə, həmçinin şagird-müəllim münasibətlərinə hərtərəfli şəkildə öz təsirini göstərir və əksər pedaqoji proseslər bu münasibətlərin adekvat qurulmasından qaynaqlanır. Nəzərə almaq lazımdır ki, pedaqoji proses elə ünsiyyət prosesidir və bu proses müəllimin kommunikativ və didaktik qabiliyyətlərinin effektiv təşkilindən birbaşa asılıdır.

Aparılmış tədqiqatlar göstərir ki, müasir dövrdə təlimin optimallığını artırmaq, eləcə də mənimsəmənin keyfiyyətinin yüksəltmək üçün bir sıra tədbirlər sisteminin həyata keçirilməsi ilə yanaşı, didaktik və kommunikativ qabiliyyətləri müasir təhsilin tələblərinə cavab verən müəllimlərin hazırlanmasına da ciddi ehtiyac duyulur.

Faktlar göstərir ki, təlim fəaliyyətində ortaya çıxan çətinliklərin səbəblərindən biri də müəllim-şagird münasibətlərində ünsiyyətin düzgün qurulmamasıdır. Bu cəhət göstərir ki, təlim prosesində mühüm nəticələr əldə etmək üçün pedaqoji prosesin mərkəzi elementi olan müəllimin şagirdlərə ənənəvi münasibəti dəyişilməlidir. Bu münasibətləri inkişaf etdirmək və innovativ əsaslar üzərində qurmaq üçün müəllim öz kommunikativ və didaktik qabiliyyətlərini müasir tələblər üzərində qurmalıdır.

Məlumdur ki, müasir təhsil sistemində əsaslı islahatların ideya xətti şagird-müəllim münasibətləri və yeni pedaqoji təfəkkür konteksi təşkil edir və şagirdlərin şəxsiyyət kimi formalaşması vəzifəsini həyata keçirir.

Şagirdlərin peşə sahəsində və həyatda özünütəsdiqi, özünügerçəkləşdirməsi üçün bugünkü müəllimlərdən dərin bilik, bacarıqla yanaşı, yüksək peşəkarlıq tələb olunur. Belə müəllimlərin hazırlanması ali məktəblərlə yanaşı, orta məktəb divarları arasında, təcrübə toplamaqla da mümkün ola bilər.

Bütün bunlarla yanaşı nəzərə almaq lazımdır ki, müəllimin ünsiyyət qurmaq bacarığı, şagirdləri bu prosesə cəlbetmə qabiliyyəti və s. kimi peşə keyfiyyətləri şagirdlərin şəxsiyyət kimi formalaşmasında, onların ünsiyyətə olan tələbatlarının ödənməsində, ən başlıcası isə onların həyatda öz yerini

tapmasında mühüm rol oynayır, onların mənimsəmə imkanlarını artırır, yaradıcı qabiliyyətlərinin inkişafına zəmin yaradır.

Bu baxımdan müəllim fəaliyyətində didaktik və kommunikativ qabiliyyətlərin öyrənilməsi müasir təhsilimizin dünyaya inteqrasiyası şəraitində çox aktualdır və eyni zamanda xüsusi əhəmiyyətə malikdir.

Bütün bunları nəzərə alıb "Müəllimlərdə kommunikativ və didaktik qabiliyyətlərin formalaşmasının psixoloji xüsusiyyətləri" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi**. Problemin öyrənilməsinin müasir vəziyyətinə nəzər saldıqda görünür ki, müəllim şəxsiyyətinin, onun didaktik və kommunikativ qabiliyyətlərinin öyrənilməsinə çoxsaylı tədqiqat işləri həsr edilmişdir. Lakin təhsil sisteminin dinamikliyini nəzərə alsaq, bu tədqiqatlarda həm zaman, həm də məkan fərqi özünü qabarıq şəkildə göstərir.

Müxtəlif pedaqojiyönümlü tədqiqatlarda müəllim şəxsiyyəti, onun qabiliyyətlərinin formalaşması, müəllim-şagird müasibətləri və s. kimi problemlər qoyulmuş və demək olar ki, öz dövrünə uyğun olaraq müvəffəqiyyətlə həll edilmişdir.

Nəzərə almaq lazımdır ki, müəllimin didaktik və kommunikativ keyfiyyətləri müxtəlif dövrlərdə bir sıra tədqiqatçıların, o,cümlədən J.Piaje, C.Bruner, L.S.Vıqotski, E.Skinner, B.M.Teplov və b. əsərlərində fərqli aspektdən diqqət mərkəzinə gətirilmişdir. Bu tədqiqatlarda müəllimin didaktik və kommunikativ qabiliyyətlərinin müəllim üçün, təlim-tərbiyə prosesi üçün mühüm amil olduğu vurğulanmış, bu qabliyyətlərin təlimin inkişafetdirici funksiyasında dominatlığa malik olduğu göstərilmişdir.

Qeyd etmək lazımdır ki, müəllim şəxsiyyəti, onun pedaqoji qabiliyyətləri Azərbaycan psixologiyasında da hərtərəfli araşdırılmış, bu sahədə sanballı tədqiqat işləri aparılmışdır. Belə ki, B.Əliyev, Ə.Əlizadə, Ə.Bayramov, M.Həmzəyev, K.Əliyeva, R.Qədirova, R.Əliyev, R.Cabbarov, İ.Novruzlu, Q.Əzimov, C.Alıyev, C.Kuliyeva və b. öz əsərlərində pedaqoji prosesdə müəllim şəxsiyyətinə verilən tələblərə, pedaqoji takta, ünsiyyət məsələlərinə ümümpsixoloji və şəxsiyyət aspektindən geniş yer vermişlər.

Problemlə bağlı pedaqoji istiqamətdə də sistemli tədqiqatlar aparılmışdır. K.Uşinski, A.Makarenko, M.Mehdizadə, Ə.Seyidov, N.Muxtarova, S.Quliyev, H.Əlizadə, N.Kazımov, A.Abbasov və b. müəllim şəxsiyyətinin formalaşmasına təsir göstərən amilləri və onların təlim-tərbiyə prosesinə təsiri məsələlərini öyrənmişlər. Bundan başqa, həmin tədqiqatlarda əsasən, müəllim şəxsiyyətinə olan münasibətlərlə yanaşı, həm də təlim-tərbiyə sisteminin formalaşmasının nəzəri və praktik cəhətlərinin sistemləşdirilməsi də aparılmışdır. Lakin müəllimin didaktik və kommunikativ

qabiliyyətləri, demək olar ki, konkret tədqiqat obyektinə çevrilməmiş, sistemli araşdırılmamışdır. Bu da problemin tədqiqat obyekti kimi seçilməsinin əhəmiyyətini bir daha aktuallaşdırır.

**Tədqiqatın obyekti** müəllimlərdə kommunikativ və didaktik qabiliyyətlərin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın predmeti** müəllimlərdə kommunikativ və didaktik qabiliyyətlərin formalaşmasının psixoloji mexanizmləridir.

**Tədqiqatın məqsədi.** Aparılmış tədqiqatın başlıca məqsədi müəllimlərin didaktik və kommunikativ qabiliyyətlərinin səviyyəsinin aşkarlanması, onlarda didaktik və kommunikativ qabiliyyətlərinin formalaşmasına təsir göstərən amillərin müəyyən edilməsi, humanitar və dəqiq elmləri tədris edən müəllimlərin peşə qabiliyyətləri və bacarıqlarının inkişaf etdirilməsi üçün müvafiq tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Təlim fəaliyyətində müəllimlərdə kommunikativ və didaktik qabiliyyətlərin optimal təzahürü bir sıra amillərlə yanaşı, müəllimin innovativ təlim metodlardan və müasir ünsiyyət vasitələrindən istifadəsindən, onların tədris etdiyi fənlərin xarakterindən və şagirdlərin həmin fənnlərə münasibətinin çalarlarından da asılıdır.

Əsas fərziyəyyə uyğun olaraq bir köməkçi fərziyyə də götürülmüşdür:

- Pedaqoji qabiliyyətlərin strukturunda fənlərin tədrisi üsulundan və müəllimin iş təcrübəsindən asılı olmayaraq özünü neqativ yönümdə göstərən kommunikativ və didaktik qabiliyyətlər müəllimin fərdi-psixoloji xüsusiyyətlərindən və şagirdlərə seçici emosional münasibətin xarakterindən qaynaqlanır.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədi reallaşdırmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi vacib hesab edilmişdir:

1. Problemlə bağlı müvafiq pedaqoji, fəlsəfi və psixoloji ədəbiyyatın təhlili əsasında mövzunun nəzəri aspektlərini müəyyən edilməsi, onları müvafiq meyarlar əsasında sistemləşdirilməsi;
2. Müəllim peşəsinin, eləcə də təlim fəaliyyətinin əsasını təşkil edən bacarıqları araşdırmaqla yanaşı, digər bacarıq və qabiliyyətləri təhlil edilməsi, onların müəllimnin kommunikativ və didaktik keyfiyyətlərinə təsirinin müəyyənləşdirilməsi;
3. Didaktik və kommunikativ qabiliyyətləri şərtləndirən amillərin psixoloji mexanizmini aydınlaşdırılması və onların təsnifatının verilməsi;
4. Müəllimin kommunikativ və didaktik qabiliyyətlərinin təzahür xüsusiyyətlərinin müəyyənləşdirilməsi və onların inkişaf etdirilməsi üçün zəruri olan yol və vasitələrin göstərilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Tədqiqatın metodoloji

əsasını müasir psixologiya elmində qabiliyyətlərin formalaşması istiqamətində aparılan işlərin ümumelmi müddəaları və prinsipləri təşkil edir. Tədqiqatda N.V.Kuzminanın "Pedaqoji qabiliyyətlərin strukturunun müəyyən edilməsi" metodikasının uyğunlaşdırılmış variantından, eləcə də müxtəlif anket sorğularından istifadə edilmişdir. Tədqiqat Bakı şəhəri Akademik Zərifə Əliyeva adına liseydə aparılmış, 400 şagird və 50 nəfər müəllimi əhatə etmişdir.

**Tədqiqatın elmi yeniliyi.**İlk dəfə olaraq bu tədqiqat işində müxtəlif psixoloji tədqiqatlarda didaktik və kommunikativ qabiliyyətlərin əsas cəhətləri müqayisəli şəkildə təhlil edilmiş, müəllim üçün zəruri olan qabiliyyət və bacarıqlar differensiasiya edilərək sistemləşdirilmişdir.

İlk dəfə olaraq bu işdə:

- Müəllimin peşəkarlığının, yaradıcılığının stimullaşdırmasının və şagirdlərlə emosional ünsiyyət qurmaq bacarığının pedaqoji qabiliyyətlərinin strukturunda, eləcə də didaktik və kommunikativ qabiliyyətlərin təzahüründə dominatlıq təşkili etdiyi müəyyən edilmişdir.
- Aydın olmuşdur ki, bir sıra hallarda müəllimin didaktik və kommunikativ keyfiyyətlərinin yüksək olması, dərsin optimal təşkilini və mənimsəmənin effektivliyini şərtləndirmir.
- Müəyyən edilmişdir ki, fənnin özünə münasibət, onun qavranılmasında ortaya çıxan çətinlik səviyyəsi pedaqoji fəaliyyətdə müəllimin pedaqoji qabiliyyətlərinin maksimum təzahürünə zəmin yaradır.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

- Hər hansı fənnin tədrisindən asılı olmayaraq müəllimlərin təlim fəaliyyətində dialoji ünsiyyətdən, interaktiv metodlardan istifadəsi və münasibətlərin bərabərhüquqlu səviyyədə qurulması şagirdlər tərəfindən tədris materialının uğurlu qavranılmasına şərait yaradır, onlarda təlim motivlərinin formalaşmasını sürətləndirir.
- Pedaqoji fəaliyyətdə müəllimin kommunikativ və didaktik qabiliyyətlərinin istiqamətləndirici, icraedici, nəzarətedici komponentlərinin inteqrativ təzahürü şagirdlərin təlim materiallarını effektiv mənimsəmələrinə zəmin formalaşdırır, onların şəxsiyyət kimi özünütəsdiqində mühüm rol oynayır.
- Müəllimin bir sıra peşə keyfiyyətləri kimi, xüsusi qabiliyyətləri də fəaliyyyətin məqsədini, məzmununu və əməli biliklərinin vəhdətini özündə ehtiva edir. Onların dərk edilməsi əsasında qarşıya qoyulmuş məqsədə çatmaq və pedaqoji qabiliyyətlərin optimal təzahürünə nail olmaq olar.

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti**. Tədqiqatda əldə edilən müddəalar

ümumi psixologiyada şəxsiyyət keyfiyyətlərinin, müəllimlərdə idrak fəallığının və tədris üsulunun seçilməsi ilə bağlı məsələlərin şərhində, kommunikativ və didaktik keyfiyyətlərin təlim prosesində oynadığı rola aydınlıq gətirilməsində geniş şəkildə istifadə oluna bilər. Tədqiqatın nəticələri ümumi və pedaqoji psixologiyanı yeni biliklərlə zənginləşdirilməsinə, təlim fəaliyyətinin effektiv təşkili ilə bağlı olan elmi istiqamətlərin yaranmasına zəmin yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat işindən əldə olunan nəticələrdən ali və orta ixtisas məktəblərin tələbələrinin, o cümlədən ümumtəhsil məktəblərinin şagirdlərinin təlim-tərbiyəsində geniş şəkildə istifadə oluna bilər. Bununla yanaşı, tədqiqat işinin nəticələrindən gənc müəllimlər üçün elmi-metodik tövsiyələrin hazırlanmasında, pedaqoji fəaliyyətin müxtəlif aspektlərini araşdırmaqla məşğul olan elmi-tədqiqat müəssisələrinin mütəxəssislərinin tədqiqat işlərində, ümümi və pedaqoji psixologiyanın tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının iclaslarında, elmi seminarlarda, konfranslarda, məruzə və çıxışlarda müzakirə olunmuşdur. Bütün bunlarla yanaşı dissertasiyanın əsas məzmunu, başlıca müddəaları, nəticə və tövsiyələri bir neçə elmi məqalə, məruzə tezislər şəklində çap edilmiş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti göstərilir, fərziyyəsi formulə edilir, tədqiqatın metodoloji əsasları müəyyənləşdirilir, həmçinin tədqiqatın nəzəri və praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın «**Müəllim şəxsiyyətinin psixoloji səciyyəsi və tədqiqi istiqamətləri**» adlanan I fəsli dörd yarımfəsildən ibarətdir. Bu fəsildə müəllim şəxsiyyətinin psixoloji xüsusiyyətləti təhlil olunur, bu sahədə aparılmış tədqiqatlar sistemləşdirilir.

I fəslin «**Müəllim şəxsiyyəti və onun tədqiqi istiqamətləri**» adlanan birinci yarımfəslində müəllim şəxsiyyətinin psixoloji məsələləri diqqət mərkəzinə gətirilir və burada göstərilir ki, müəllim şəxsiyyəti anlayışı altında insanın həyati vacib, peşə və sosial keyfiyyətlərinin məcmusu nə-

zərdə tutulur. Qeyd olunur ki, şəxsiyyət–insanın elə keyfiyyətlərinin məcmusudur ki, bu keyfiyyətlər sosial baxımdan şərtlənmişdir və insanın özü və başqaları üçün əhəmiyyətli rol oynayaraq insanın mənəvi hərəkətlərinin istiqamətlənməsində, eləcə də ictimai əlaqə və münasibətlərdə təzahür edir. Müəllim pedaqoji fəaliyyət fonunda yeni peşə keyfiyyətləri, həmçinin şəxsiyyət keyfiyyətləri mənimsəyir və onun şəxsiyyəti formalaşır. Bu yarımfəsildə göstərilir ki, müəllim şəxsiyyəti hər bir konkret tarixi dövrdə, hər bir şəraitdə özünəməxsus şəkildə qiymətləndirilmişdir. Lakin bununla belə, zaman keçdikcə müəllim şəxsiyyətiня münasibət özünün fundamentallığına görə öz əhəmiyyətini qoruyub saxlamış, hər bir dövrdə yüksək dəyər kimi qəbul edilmişdir.Bunula yanaşı burada müəllim şəxsiyyətinin psixoloji məsələlərinin öyrənilməsinə həsr olunmuş tədqiqatlar sistemləşdirilmiş və təhlil olunmuşdur.

I fəslin **«Müəllimin müasir cəmiyyətdə yeri və ona verilən psixoloji tələblər»** adlanan ikinci yarımfəslində müasir cəmiyyətdə müəllimin mövqeyi və ona tarixi-psixoloji yanaşma diqqət mərkəzinə gətirilir. Bu yarımfəsildə qeyd olunur ki, müəllimlik peşəsi cəmiyyətin formalaşması qədər qədim və müqəddəs peşədir. Müasir təlim texnologiyalarından istifadə nəticəsində yeni dərs modellərinin yaradılması, təhsil kurrikulumu və qiymətləndirmədə yeni üsulların tətbiqi müəllim qarşısında məzmunca fərqli tələblər qoyur, ondan təlimin subyektlərinə, şagirdlərlə ünsiyyətə, təlimin təşkilinə yeni kontekstdən yanaşmağı tələb edir. Burada qeyd edilir ki, müəllimin pedaqoji fəaliyyəti müvəffəqiyyətlə yerinə yetirməsi onun öz qarşısında duran funksiyaların necə həyata keçirməsindən asılı olur.

I fəslin **«Müəllimin professioqraması və onun müasir modeli»** adlanan üçüncü yarımfəslində qeyd edilir ki, professioqramma əmək fəaliyyətinin öyrənilməsinə müasir yanaşmadır və bu fəaliyyətin uğurlu təşkilini təmin edən obyektiv və subyektiv şərtləri özündə əks etdirir. Bu yarımfəsildə göstərilir ki, müəllim peşəsi cəmiyyətin ən şərəfli peşəsi olduğundan ona verilən tələblər digər sahələrə verilən tələblərdən ciddi şəkildə fərqlənir. Müəllim əməyi çoxcəhətli psixi reallıqdır və burada bir-biri ilə vəhdətdə olan üç cəhət diqqəti xüsusi olaraq cəlb edir. Bunlar pedaqoji fəaliyyət, pedaqoji ünsiyyət və müəllim şəxsiyyətinin xüsusiyyətlərindən ibarətdir. Onlar vahid məqsədə-cəmiyyətin sosial sifarişini həyata keçirməyə yönəlsələr də, bir-birini təkrar etmirlər. Bu yarımfəsidə eyni zamanda pedaqoji ünsiyyətin qanunauyğunluqları təhlili olunur, müəllimin didaktik və kommunikativ keyfiyyətləri aparılmış tədqiqatlar fonunda sistemləşdirilir.

I fəslin **«Pedaqoji fəaliyyətdə müəllimin özünütəhlil qabiliyyətinin inkişafının psixoloji məsələləri»** adlanan dördüncü yarımfəsli müəllimin

özünütəhlil və peşə refleksiyasının məsələlərinin təhlilinə həsr olunb. Bu yarımfəsildə qeyd olunur ki, pedaqoji fəaliyyət prosesinin mərkəzi elementi müəllim olduğundan onun özünütəhlil qabiliyyəti bu prosesin mənalandırılmasında, müəllimin öz keyfiyyətlərini təhlil edib, özünün çatışmazlıqlarını aradan qaldırmasında müstəsna əhəmiyyətə malikdir. Bununla yanaşı, özünütəhlil qabiliyyəti pedaqoqun özünütəkmilləşdirməsinin stimulu rolunu oynayır. Məhz buna görə də müəllimin özünütəhlil qabiliyyəti onun peşə fəaliyyətinin tənzimlənməsində xüsusi əhəmiyyətə malik olur və onun araşdırılması pedaqoji fəaliyyətin zəruri problemlərindən biri kimi çox aktualdır. Nəzərə almaq lazımdır ki, özünütəhlilin prosessuallığı özündə gercəkliyin məntiqi dərkini nəzərdə tutur və situasiyanın elementlərə bölünməsi, onların vəhdətdə götürülməsi, gələcək perspektivlərin qabaqcadan duyulması sayəsində inkişaf etdirlə bilər.

Özünün pedaqoji fəaliyyətinin təhlili, müəllimin özünə tənqidi münasibət bəsləməsi keçmiş, indi və gələcək triadasında öz fəaliyyətini qurması, onda hadisələrə məntiqi yanaşma tərzi formalaşdırır. Belə yanaşma müəllimdən analtik və assosiativ qabiliyyətlərin, müstəqillik və məntiqilik kimi təfəkkür keyfiyyətlərinin inkişaf etdirilməsini tələb edir. Özünü peşəkar kimi dərk etməsi müəllimin özünüdərketməsi, özünənəzarət etməsi, çətinliklərin adekvat qiymətləndirilməsi fonunda daha effektiv təşkil olunur. Məhz bu keyfiyyətlərin və qabiliyyətlərin inkşaf etdirilməsi müəllimin özünütəhlil qabiliyyətini artırır, onun peşə fəaliyyətində zəruri olan zirvəyə yüksəlməsinə gətirib çıxarır. Qeyd olunan mövqedən müəllimdə özünütəhlil qabiliyyətinin inkişaf etdirilməsinə çoxamilli analtik proses kimi yanaşmaq və pedaqoji təcrübənin özünənəzarət və özünütəkmilləşdirmə perspektivi üzərində qurulmasına nail olmaq olar.

Dissertasiyanın **"Müəllimlərdə ümumi və xüsusi qabiliyyətlər, onların formalaşmasının psixoloji zəmini"** adlanan II fəsli beş yarımfəsildən ibarətdir. Bu fəsildə qabiliyyətlərin psixoloji mahiyyəti və tədqiqi istiqamətləri, pedaqoji qabiliyyətlərin psixoloji səciyyəsi, xüsusi qabiliyyətlər və onların təlim prosesində nəzərə alınması, eləcə də müəllimin pedaqoji keyfiyyətlərinin peşə fəaliyyətinə təsirinin eksperimental-psixoloji tədqiqi məsələləri diqqət mərkəzinə gətirilir.

II fəslin «**Qabiliyyətlərin psixoloji mahiyyəti və tədqiqi istiqamətləri**» adlanan birinci yarımfəslində qabiliyyətlərin genezisi, strukturu və psixoloji mahiyyəti haqqında aparılmış tədqiqatlar təhlil olunur, pedaqoji qabiliyətin formalaşması istiqamətləri göstərilir. Qeyd olunur ki, qabiliyyətlər haqqında elmi ideyalar XVIII əsrin əvvələrinə gedib çıxır. Lakin həmin fikirlər müasir psixoloji yanaşmalarda hərtərəfli istifadə edilmədiyi üçün onu tarixi planda tədqiq etməyə elə də ciddi zərurət duyulmur.

Aparılmış tədqiqatların əksəriyyətində qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri olub, müəyyən fəaliyyətin müvəffəqiyyətli icrasının şərtini təşkil edir və onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqlərdə ifadə olunur. Nəzərə almaq lazımdır ki, qabiliyyətlər insanın elə psixoloji xüsusiyyətləridir ki, onlardan asılı olaraq bilik, bacarıq və vərdişlərə yiyələnmək işində müvəffəqiyyət əldə edilir. Ancaq qabiliyyətlərin özü bilik, bacarıq və vərdişlərin mövcudluğundan ibarət deyildir. Psixoloji tədqiqatlar və pedaqoji təcrübə göstərir ki, bəzən əvvəllər müəyyən bir fəaliyyət sahəsində öz bacarıqsızlığı ilə başqalarından fərqlənən bir şəxs təlim nəticəsində vərdiş və bacarıqlara çox surətlə yiyələnərək, sənətə sahib olmaq yolunda hamını ötüb keçir. Onda başqalarına nisbətən daha artıq qabiliyyətə malik olduğu üzə çıxır. Bütün bunlarla yanaşı bu yarımfəsildə qabiliyyətlərin tədqiqinə həsr olnumuş geniş tədqiqatlar sistemli təhlil olunur və istedad, talant anlayışlarına aydınlıq gətirilir.

Dissertasiyanın II fəslinin **«Pedaqoji qabiliyyətlərin psixoloji səciyyəsi»** adlanan ikinci yarımfəsli pedaqoji qabiliyyətlərin təhlilinə həsr olunmuşdur. Burada qeyd olunur ki, pedaqoji fəaliyyətin müvəffəqiyyətini təmin edən, müəllimin pedaqoji ustalığını şərtləndirən cəhətlərdən biri də onun pedaqoji bacarıq və qabiliyyətləridir. Müəllim yalnız dərin biliyə, geniş dünyagörüşünə malik olmaqla, öz fənnini hərtərəfli mənimsəməklə kifayətlənməməlidir. O, eyni zamanda bildiklərini, öyrəndiklərini, tədris etdiyi elmin əsaslarını şagirdlərə çatdırmağı da bacarmalıdır. Hər fənnin özünəməxsus xüsusiyyətləri, çətinlikləri vardır. Ona görə də müəllim öz fənnini yaxşı bilməklə, onu şagirdlərə çatdırmaq yollarına da yiyələnməlidir.

Pedaqoji və psixoloji ədəbiyyatın təhlili göstərir ki, pedaqoqun mühüm peşəkar keyfiyyətlər siyahısı genişdir. Bura həm müəllimin peşəkar keyfiyyətləri, həm də onun fəaliyyətinin ayrı-ayrı xüsusiyyətləri, şəxsi qabiliyyətləri, sosial-psixoloji, psixofizioloji xüsusiyyətləri və s. daxildir. Müxtəlif fənn müəllimlərinin peşəkar keyfiyyətləri spesifikdir. Məhz bu xüsusiyyətinə görə də tədris olunan fəndən asılılığı az olan peşəkar keyfiyyətlər pedaqoji ustalıqdan, pedaqoji komponentlikdən, pedaqoji yaradıcılıqdan fərqlənir.

Dissertasiyanın II fəslinin «**Xüsusi qabiliyyətlər və onların təlim prosesində nəzərə alınması»** adlanan ücüncü yarımfəsli xüsusi qabiliyyətlər və onların təlim prosesində nəzərə alınmasının müxtəlif məsələlərinin təhlilinə həsr olunmuşdur. Aparılmış tədqiqatlar göstərir ki, pedaqoji qabiliyyətlərin təlimdə yüksək bacarıq nümayiş etdirən pedaqoqlar şəxsi "Mən"inin dərketməsi səviyyəsi, aşağı və orta bacarıqlar nümayiş

etdirən pedaqoqlardan fərqlidir. Yüksək bacarıq nümayiş etdirən pedaqoqlarda qlobal özünüqiymətləndirmə, özünə hörmət, özünə inam və şəxsiyyətlərarası münasibətlərdə interallığın yüksək səviyyəsi səciyyəvidir.

Dissertasiyanın II fəslinin **«Müəllimin didaktik və kommunikativ keyfiyyətlərinin formalaşması istiqamətləri»** adlanan dördüncü yarımfəslində müəllimdə didaktik və kommunikativ keyfiyyətlərin formalaşdırılması məsələləri diqqət mərkəzinə gətirilir. Bu yarımfəsildə biliyin qavranılmasının səciyyəvi xüsusiyyətləri təhlil olunur və biliyin mənimsənilməsi didaktik prosesin mərkəzi elementi kimi çıxış edir. Müəllimin didaktik keyfiyyətləri aşağıdakı şərtlərlə səciyyələnir:

1. Mənimsəmənin məqsədlərinin anladılması və şagirdlər qarşısında qoyuluşu;
2. Mənimsəmə üçün vacib stimulların yaradılması; şagirdlər tərəfindən müxtəlif üsullarla (axtarışlar, nəticəçıxarma vasitəsi iləəldə edilən) müxtəlif mənbələrdən əldə edilən informasiyanın qavranılması;
3. Əldə edilmiş informasiya ilə təcrübi əməliyyatların aparılması;
4. Şagirdlərin əldə etdikləri bilik və vərdişlərin möhkəmləndirilməsi və təkmilləşdirilməsi;
5. Bacarıq və vərdişlərin formalaşdırılması, əldə edilən nəticələrin təhlili.

Hər bir pedaqoji bacarıq üçün başlanğıc, müəyyən məqsədin əldə edilməsinə yönəldilmiş ayrı-ayrı pedaqoji fəaliyyətdir ki, birlikdə onun həlli üsullarını əmələ gətirir. Mənimsənilərək və təkmilləşərək bu fəaliyyətlər uyğun pedaqoji bacarıqlara keçir ki, onlar da öz növbəsində daha mürəkkəb pedaqoji bacarıqların tərkibinə daxil olur. Beləliklə, peşəkar didaktik bacarıqlar məktəblilərin bilikləri mənimsəmə prosesinə və fəaliyyət tərzinə rəhbərlik etmək üçün vacib olan, sıx bacarıqlar vəhdətindən irəli gələn müəllimin ümumiləşmiş bacarıqlarıdır. Onların köməyi ilə konkret didaktik məsələlərin yaradıcı həlli həyata keçirilir. Bütün bunlarla yanaşı yarımfəslin sonunda qeyd olunur ki, müəllimin kommunikativ və didaktik qabiliyyətlərinin inkişaf etdirilməsi təhsilin yeni formasının və məzmununun formalaşdırılmasına və təlimdə yeni innovativ metodların yaradılmasına zəmin yaradır.

Dissertasiyanın II fəslinin **«Müəllimin pedaqoji keyfiyyətlərinin peşə fəaliyyətinə təsirinin eksperimental-psixoloji tədqiqi »** adlanan beşinci yarımfəsli eksperimental psixoloji tədqiqatın təşkili və keçirilməsinə həsr olunmuşdur.

Anket sorğu vasitəsi ilə aparılan eksperimentə müəllimlərlə yanaşı, tə-

sadüfi seçim əsasında müxtəlif siniflərdə oxuyan şagirdlər də cəlb olunmuşdur. Əldə olunmuş nəticələr cədvəl və qrafiklərdə öz əksini tapışdır.




Şək. 2.1 Şagirdlərin müxtəlif avtoritar təsirlərə məruz qalmaması üçün müəllimlərin həyat keçirdiyi tədbirlərin göstəriciləri

Şəkil 2.1-dən göründüyü kimi, müəllimlərin 45% şagirdləri avtoritar təsirlərdən qorumaq üçün onların sərbəstliyini təmin etməyi 1-ci yerdə görürlər və bu üsuldan istifadə etməyi məqbul hesab edirlər. Onlarla aparılmış rəy sorğuları göstərdi ki, əslində müəllimlər bu zaman hansı metoddan istifadə etdiklərini dəqiq təsvir edə bilmirlər. Faizlər üzrə göstəricilərə əsasən müəllimlər ən sonuncu yerdə dərslə əlaqəli məlumatların verilməsinin mütəmadiliyini onların sərbəstliyinin təmin olunmasının əsas şərti hesab edirlər.

Şəkil 2.2-dən göründüyü kimi, şagirdlərin başqalarından gözləmələrinə qarşı qorxu hissinin olmaması üçün dərsdə müəllimlərin istifadə etdikləri tədbirlərdən ən üstünü, onların fikrincə, sərbəst dialoji ünsiyyət yaramatqdır. Qeyd etmək lazımdır ki, bu, adekvat üsuldur və müəllimlərin 28 % bunu əsas üsul kimi qəbul edirlər. Lakin bununla yanaşı, onlara dəstək olmağı və rəğbətləndirməni də dominant üsul kimi qeyd edənlər az olmamışdır. Burada ən aşağı səviyyə qiymətləndirməni şagirdlərin razılığı ilə aparılması ( 13 %) tutur. Qeyd etmək lazımdır ki, bu üsulun, təbii ki, dərs prosesində tətbiq olunması çətindir və adətən, treninq proqamlarında bundan istifadə edilir.




Şək.2.2.Şagirdlərdə təlim prosesində qorxu hissinin azadılması üçün müəllimlərin istifadə etdikləri üsulların ierarxiyası

Şəkil 2.3-dən göründüyü kimi, müəllimlərin əksəriyyəti – 35% müsbət psixoloji iqlim şəraiti yaratmaq üçün dostluq münasibətlərindən istifadə edir. Bu olduqca adekvat üsuldur və müəllimlərin şagirdlərlə belə münasibətinin olması onlarda pedaqoji qabiliyyətlərin yüksək səviyyədə olmasını göstərir. Bununla yanaşı, müsbət psixoloji iqlimi formalaşdırmaqda çətinlik çəkən müəllimlər də az deyildir. Belə ki, onların 18%-i müsbət psixoloji iqlim şəraiti yaratmaq üçün psixoloqa müraciət etməyi düzgün hesab edirlər. Amma bu, adekvat yanaşma deyil. Müəllim bunun üçün özünün zəruri olan keyfiyyətlərinə yenidən baxmalı və onları refleksiya etməyi bacarmalıdır. O, psixoloqdan ancaq müəyyən məsləhətlər ala bilər. Dərs prosesinin məsuluyyətini müəllim bütünlüklə dərk etməlidir. Şagirdlərin müəllimlərin dərsində özlərini necə hiss etmələri haqqında sualı cavablandırarkən yalnız onların 23% özünü rahat hiss etdiklərini qeyd etmişlər. Bununla belə, bu rahatlıq fənlər üzrə dəyişir. Belə ki, tarix dərsində uşaqlar özlərini riyaziyyat dərsinə nisbətən daha rahat hiss etdiklərini göstərmişlər. Mənimsəmə imkanları riyaziyyat dərsində tarix dərsinə nisbətən aşağı olmuşdur.




Şək.2.3. Dərsdə müsbət psixoloji iqlimin formalaşdırılması yolları




Şək. 2.4 Şagirdlərin fəaliyyətinin ədalətli qiymətləndirilməsi üçün müəllimlərin istifadə etdikləri vasitələrin ierarxiyası

Şagirdlər bu faktı müəllimlərin dərsdə yaratdıqları ünsiyyətlə bağlamışlar. Konkretlik, emosional baxımdan quruluq, müəllimin avtoritar üslubu uşaqların dərsdə özlərini rahat hiss etmələrinə mane olur. Halbuki müəllimlər hesab edirlər ki, uşaqlar onların dərsində rahatdırlar. Göründüyü kimi, müxtəlif ziddiyyətlər pedaqoji prosesdə bilavasitə müəllimin kommunikativ və didaktik qabiliyyətlərinin yüksək olmaması səbəbindən yaranır.

Şəkil 2.4-dan göründüyü kimi, şagirdlərin fəaliyyətinin ədalətli qiymətləndirilməsi üçün müəllimlərin istifadə etdikləri qiymətləndirmənin ierarxiyasında 1-ci yeri fərdi xüsusiyyətləri nəzərə almaqla qiymətləndirmə (43%) təşkil etmişdir. Müəllimlərin əksəriyyətinin bu vasitələrdən istifadə etməsi qənaətbəxşdir. Lakin burada müəllimlərin heç biri müasir qiymətləndirmə üsullarından istifadə etdiklərini göstərmirlər. Bu isə təlimin ənənəvi üsullarla aparıldığına əyani sübutdur. Əslində, fərdi-psixoloji xüsusiyyətləri nəzərə almaqla qiymətləndirmə şagirdlərin bir sıra hallarda narazılığına səbəb ola bilər. Belə vəziyyət isə müəllimin pedaqoji qabiliyyətlərinə təsir göstərə, onun ümumi statusuna xələl gətirə bilər.

Şəkil 2.5-dən göründüyü kimi, məllimlərin təlimdə dialoji münasibətlərdən istifadəsində onların 40% bundan istifadə etdiklərini göstərmiş, 38% məhdudiyyətlə tətbiq etdiyini qeyd etmiş, 18% çalışdığını, lakin heç də həmişə belə bir ünsiyyətin alınmadığını vurğulamış, cəmi 4% istifadə etmədiklərini göstərmişlər. Əslində, müəllimlərin əksəriyyətinin dialoji ünsiyyətə üstünlük verməsi heç də onların şagirdlərlə subyekt-subyekt münasibətlərində olduğunu göstərmir. Müəllimlərdən bunu necə etdiklərini soruşduqda onlar daha çox didaktik qaydaları qeyd etmiş və bunu dialoji ünsiyyət kimi anlamışdır. Əslində isə dialoji ünsiyyət zamanı interaktiv metodlardan istifadə üstünlük təşkil edir və münasibətlər bərabərhüquqlu səviyyədə qurulur. Göründüyü kimi, müəllimlərin çox hissəsi bu münasibətlərdən istifadə etmədiklərini əyani şəkildə göstərirlər. Bu isə təlimdə müəllimin yalnız monoloji ünsiyyətdən istifadəsinə gətirib çıxarır ki, bu da müasir təhsil üçün zəruri olmayan interpretasiyanın dominantlığına zəmin yaradır. Apardığımız sorğu göstərdi ki, bir neçə meyar üzrə müəllimin keyfiyyətlərinin və fəaliyyətinin qiymətləndirilməsində zəruri olan cəhətlər vardır ki, onların nəzərə alınması vacibdir. Bunlardan əsası müəllimin peşəkarlığı, yaradıcılığı stimullaşdırması və şagirdlərlə emosional ünsiyyət qurmağı bacarmasıdır. Bir sıra hallarda digər keyfiyyətlərin yüksək olmasına və müəllimin didaktik qabiliyyətlərinin lazımi şəkildə olmasına baxmayaraq, dərsin təşkilində və mənimsəmənin məhsuldarlığında elə də dəyişiklik baş vermir.




Şəkil 2.5 Müəllimlərin təlimdə dialoji münasibətlərdən istifadəsinin göstəriciləri

Bununla yanaşı, fənnin özünə münasibət, onun qavranılmasında çətinlik və ya asanlıq səviyyəsi də pedaqoji fəaliyyətdə müəllimin pedaqoji qabiliyyətlərinin təzahürünə zəmin yaradır. Apardığımız rəy sorğuları və eksperment göstərdi ki, müəllimin şagirdlər tərəfindən qiymətləndirilməsini bir neçə tipə bölmək olar: kommunikator, fənn müəllimi, təşkilatçı. Bu tiplərin hər biri özünəməxsus fərdi xüsusiyyətləri ilə bir-birindən fərqlənir.

Kommunikator müəllim tipi özünün ekstravertivliyi, aşağı səviyyədə konfliktliyi, xeyirxahlığı, şagirdlərin dərdini başa düşmək qabiliyyəti ilə, uşaqlara məhəbbət bəsləməsi vasitəsilə tərbiyəvi tədbirləri həyata keçirir.

Fənn müəllimində isə özünün rasionallığı, biliklərə möhkəm inamı, onların həyatda əhəmiyyətinə inam və s. müşahidə olunur.

Bu tip müəllimlər pedaqoji təsirləri bilavasitə fənn vasitəsilə, şagirdləri işə cəlb etməklə həyata keçirir.

Təşkilatçı tip müəllim nəinki sinifdə, hətta şagird qruplarında liderlik edir, o hətta pedaqoji kollektivdə də öz liderliyini qoruyub saxlayır və işgüzar əlaqələr vasitəsilə öz təsirlərini həyata keçirir.

Müxtəlif fənləri tədris edən müəllimlərin pedaqoji qabiliyyətlərinin müqayisəli təhlili göstərir ki, onların strukturu özünə müvafiq elementlər daxil edir. Praktik olaraq bütün tədqiq olunan fənn müəllimlərinin iş təcrübəsinin nəzərə alınması fonunda əsas qabiliyyət kimi pedaqoji fəa-

liyyətin müvəfəqiyyətini təmin edən effektivlik ayırd edilmişdir. Bu faktla müəllimin tədris etdiyi predmetə münasibəti və müəllimin peşəkar formalaşma mərhələlərindən asılı olduğu müəyyən edilmişdir.

Fənn müəllimlərinin pedaqoji qabiliyyətlərinin strukturu

Cədvəl 1.1

| Tədris edilən fənnin adı | Peşəkar formalaşmanın mərhələləri | | |
|---|---|---|---|
| | Tələbələr | Müəllimlərin (5-10) iş təcrübəsi | Müəllimlərin (15-30) iş təcrübəsi |
| Ana dili və ədəbiyyatı | 1.Pedaqoji fəaliyyətin müvəffəqiyyətliliyi<br>2.Pedaqoji prosesdən məmnunluq<br>3. Pedaqoji həssaslıq | 1. Pedaqoji kommunikasiyaya qabiliyyətlilik<br>2. Pedaqoji effektlik<br>3. Pedaqoji peşədən məmnunluq<br>4. Pedaqoji həssaslıq | 1.Pedaqoji effektlik<br>2.Pedaqoji peşədən məmnunluq<br>3. Pedaqoji kommunikasiyanı təşkil etmək qabiliyyəti<br>4. Pedaqoji həssaslıq |
| Riyaziyyat | 1.Pedaqoji fəaliyyətin müvəffəqiyyətliliyi<br>2.Pedaqoji prosesin prosessuallığı<br>3. Pedaqoji istiqamətlik | 1. Pedaqoji istiqamətlilik<br>2. Pedaqoji effektlik<br>3. Pedaqoji mədəniyyət | 1. Pedaqoji mədəniyyət<br>2. Pedaqoji effektlik<br>3. Pedaqoji istiqamətlilik |
| İngilis dili | 1.Pedaqoji fəaliyyətin müvəffəqiyyətliliyi<br>2.Pedaqoji prosesdən məmnunluq | 1.Pedaqoji peşədən məmnunluq<br>2. Pedaqoji həssaslıq | 1. Kommunikativ həssaslıq<br>2. Pedaqoji prosesdən və peşədən məmnunluq |
| Kimya | 1.Pedaqoji fəaliyyətin müvəffəqiyyətliliyi<br>2.Pedaqoji prosesdən məmnunluq | 1. Pedaqoji qabiliyyətlilik | 1. Kommunikasiya mədəniyyəti<br>2. Pedaqoji fəaliyyətin təşkilindən məmnunluq |
| Tarix | 1.Pedaqoji fəaliyyətə qabiliyyətlilik<br>2. Pedaqoji həssaslıq<br>3. Pedaqoji prosesdən məmnunluq<br>4. 1.Pedaqoji fəaliyyətin müvəffəqiyyətliliyi | 1. Pedaqoji prosesin effektlivliyi<br>2. Pedaqoji kompetentlik<br>3. Pedaqoji həssaslıq<br>4. Pedaqoji istiqamətlilik | 1.Pedaqoji effektlilik<br>2.Pedaqoji mədəniyyət<br>3.Pedaqoji fəaliyyətin təşkilindən məmnunluq<br>4. Pedaqoji həssaslıq |

Məlumdur ki, insanın daxili dünyası, onu əhatə edən təbiətlə əlaqəsi haqqında elmlərin tədrisini həyata keçirən müəllimlərin pedaqoji qabiliyyətlərinin strukturunda emosional elementlər üstünlük təşkil edir ki, bu da dərsdə hissləri fəallaşdırmağa imkan verir və şagirdlərin qavrama imkanlarını artırır. Belə fənlərin tədrisində emosional xüsusiyyətlər pedaqoji qabiliyyətin özünə çevrilir. Dəqiq elmləri tədris edən müəllimlərin pedaqoji qabiliyyətlərinin strukturunda rasional alt-struktur (pedaqoji istiqamətlilik) özünü göstərir, bir sıra hallarda isə quru intellektualizm hökm sürür.

Aparılmış tədqiqatların və keçirilmiş eksperimentin təhlili aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Aparılmış tədqiqatlar göstərir ki, müəllimin peşə qabiliyyətləri sırasında akademik, didaktik, ünsiyyət, konstruktiv, təşkilatçılıq və iradi-emosional qabiliyyətlər mühüm yer tutur.
- Didaktik qabiliyyət—bilikləri öyrətmə bacarığında, pedaqoji-metodik ustalığa yiyələnməkdə; kommunikativ qabiliyyət—uşaqlarla, öz həmkarları və valideynlərlə düzgün ünsiyyət yaratmaqda, demokratik ünsiyyət üslubunda, hər bir uşağa fərdi yanaşma bacarığında ifadə olunur.
- Apardığımız tədqiqat göstərdi ki, pedaqoji qabiliyyətlərin strukturunda fənlərin tədrisindən və müəllimin iş təcrübəsindən asılı olmayaraq, ümumi olan qabiliyyətlər vardır ki, bu qabiliyyətlər daha çox pedaqoji effektivliyi özündə əks etdirir.
- Hər bir müəllimin peşəkar kimi formalaşması mərhələsində özünəməxsus pedaqoji qabiliyyətlər üstünlük təşkil edir ki, bu qabiliyyətlər hər fənn üçün spesifik xüsusiyyətlərə malik olur.
- Müəllimlərin pedaqoji qabiliyyətlərinin strukturu şagirdlərin pedaqoji qabiliyyətlərinin strukturuna müvafiq gəlir və bu da pedaqoji fəaliyyətin təsirindən qaynaqlanır;
- Dəqiq elmləri tədris edən müəllimlərin pedaqoji qabiliyyətlərinin strukturunda rasional alt-struktur üstünlük təşkil edir ki, bu da pedaqoji fəaliyyətin təşklində bir sıra məhdudiyyətlərin tətbiqinə gətirib çıxarır.
- Pedaqoji fəaliyyətinin təhlili göstərir ki, pedaqoji funksiyaların səmərəliliyi üçün vacib olan optimizm, sosial məsuliyyət, mütəşəkkillik, müstəqillik, innovativ qabiliyyətlər, kommunikativlik, kreativlik, tələbkarlıq, emosional təmkin, emosional həssaslıq, xarici cazibədarlıq kimi vacib keyfiyyətlər müəllim üçün dominant cəhətlərdəndir.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **məqalə və tezislərində** öz əksini tapmışdır:

1. Müəllim professioqramı və onun müasir modeli // Psixologiya jurnalı, Bakı, 2011, №3, s.143-152
2. Pedaqoji fəaliyyətdə müəllimin özünütəhlil qabiliyyətinin inkişafının psixopedaqoji problemləri // Psixologiya jurnalı, Bakı, 2011, №4, s.129-140
3. Müəllim-şagird münasibətində münaqişə problemlərinin başvermə səbəbləri / Doktorantlar və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialı. Bakı: 2011, s.378-382
4. Müəllim şəxsiyyəti və onun tədqiqi istiqamətləri // ARTPİ-nin Elmi əsərləri, Bakı, 2012, №1, s.145-150
5. Kommunikativ və didaktik qabiliyyətlərin formalaşması istiqamətləri // ARTPİ-nin Elmi əsərləri, Bakı, 2012, №2, s.95-101
6. Sosial adaptasiya və emosional zəka ( müqayisəli təhlil ) / Ümumi orta təhsilin müasir problemləri mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan: 2012, s.192-193
7. Коммуникативные и дидактические способности в педагогической психологии // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı, 2012, №3, s.231-238
8. Общие вопросы дидактические способности в педагогической психологии / Материалы V Международной научно-методической конференции. Пятигорск: 2012, с.155-159
9. Основные направления формирования дидактических и коммуникативных способностей // Поиск-Ізденіс, Казахстан, 2012, №2, с.142-146
10. Ümidlər doğrudur // Azərbaycan məktəbi jurnalı, Bakı, 2012, №2, s. 47-51
11. Sosial adaptasiya və peşəyə adaptasiya // Azərbaycan məktəbi jurnalı, Bakı, 2013, №3,s. 41-45

` **Махаббат Магеррам гызы Велиева**

## Психологические особенности формирования дидактических и коммуникативных способностей преподавателей


### Резюме

Исследование посвящается изучению одной из актуальных проблем современности – психологических особенностей формирования коммуникативных и дидактических способностей преподавателей. После провозглашения независимости нашей Республики в сфере образования, как и во всех сферах, появилась необходимость реформ и ряда изменений в деятельности преподавателей. Основной частью этих реформ является демократизация и гуманизация отношений между учителем и учеником. Как показывают факты, формы общения, которые формируются в процессе преподавания, оказывают влияние и на отношения между учеником и учителем, а также на успешную организацию обучения. С психологической точки зрения изучение таких факторов является очень актуальным и имеет практическую важность. Диссертация состоит из вступления, двух глав, заключения и списка использованной литературы.

Первая глава диссертации, которая называется **«Психологическая характеристика личности учителя и направления ее исследования»,** состоит из четырех параграфов. В этой главе проанализированы психологические характеристики личности учителя, систематизированы исследования, проведённые в этой области, особое внимание уделяется положению учителя в современном обществе и психологические требования, предъявляемые к нему, также рассматривается психологический подход современного общества к социальному статусу учителя. Проанализировав профессиограмму и современную модель учителя, анализируется предоставление объективных и субъективных условий для успеха в этой деятельности, исследуются психологические проблемы в развитии преподавания, способность учителя к самоанализу.

Вторая глава диссертации, которая называется «**Общие и специальные способности учителя, психологические основы их формирования»**, состоит из пяти параграфов. В этой главе в центре внимания – психологическая суть способностей и направление их исследований, психологическая характеристика педагогических навыков, принимающая во внимание особые способности в процессе обучения. Также изу-

чаются экспериментально-психологические вопросы педагогических качеств учителя, их влияние на его профессиональную деятельность. Проведённые исследования показали, что есть ряд необходимых особенностей, которые нужно принимать во внимание для оценки качеств учителя и его производительности по нескольким критериям. Основой этого является профессионализм учителя, а также его умение эмоционального общения с учениками.

В заключительной части диссертации обобщаются научно-теоретические результаты исследования. Было обнаружено, что оценивание учителя со стороны учеников можно разделить на несколько типов: коммуникатор, учитель-предметник и организатор. Каждый из этих типов отличается друг от друга своими индивидуальными особенностями.

**Mahabbat Mahharam Valiyeva**

## The psychological characteristics of formation of teacher's didactic and communicative abilities

### Summary

The study is devoted to the study of one of the urgent problems of the modern period – the psychological characteristics of formation of communicative abilities of teachers and teaching. After the proclamation of independence of the our Republic in the field of education, as in all fields, the necessity of reforms and changes in the activity of a number of teachers. The main part of these reforms is the democratization and humanization of relations between teacher and pupil. Facts prove that the form of communication, which are formed in the process of teaching and influence on the relationship between student and teacher, as well as on the successful organization of learning. From a psychological point of view the study of these factors is very relevant and is of practical importance. The thesis consists of an introduction, two chapters, conclusion and bibliography.

The first chapter of the thesis, entitled "Study of the psychological aspects of the character and personality of the teacher", consists of four sections. This chapter analyzed the psychological characteristics of the person of teacher, a systematic studies in this area, focusing on the situation of teachers in today's society and psychological demands placed upon it, is also considered a psychological approach of modern society to the social status of the teacher. Analyzing professiogram and modern model teacher analyzes to provide objective and subjective conditions for the success of this activity, psychological problems are investigated in the development of teaching, teacher's ability to introspect.

The second chapter, entitled "General and special abilities of the teacher, the psychological foundations of their formation", consists of five sections. In this chapter in the focus the essence of psychological abilities and the direction of their research, the psychological characteristics of pedagogical skills, taking into account the special abilities in the learning process. There are also studied experimentally and psychological qualities of the teacher pedagogical issues and their impact on their professional activities. Studies have shown that there are a number of essential features that must be taken into account to assess the qualities of the teacher and his performance on several criteria. This is based on the professionalism of teachers, as well as his ability to emotional communication with students.

In the conclusion part of the thesis are summarizes scientific and theoretical results of investigation. It was found that teacher evaluation by students can be divided into several types: communicator, subject teacher, organizer and intellectual. Each of these types differs from each other in their individual characteristics.